# Yürüdülən siyasətin mərkəzində dövlətin maraqları və Azərbaycan vətəndaşının mənafeyi dayanır

**Azərbaycan davamlı innovativ inkişafı ilə regionun müasir, lider dövlətinə çevrilib. Ölkənin bütün bölgələri, şəhər və kəndləri günbəgün dəyişir, abadlaşır, gözəlləşir. Bunun təməlində yeni inşa və bərpa edilən, müasirləşdirilən sənaye və emal obyektləri, təhsil və səhiyyə ocaqları, modul elektrik stansiyaları, Olimpiya idman kompleksləri, müasir nəqliyyat və s. infrastruktur dayanır. Azərbaycan o nadir ölkələrdəndir ki, 2009-cu ildən başlayan, bu gün də fəsadları aradan getməyən qlobal iqtisadi və maliyyə böhranı şəraitində öz dinamik inkişafını qoruya bilib. Dövlət belə bir ağır vəziyyətdə heç bir ölkəyə, beynəlxalq quruma müraciət etməyib, düşünülmüş siyasətlə, xalqın etimadı və dəstəyilə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirib, hədəflərinə çatıb.**



Qlobal böhranın başladığı ilin göstəricilərinə diqqət yetirək: Azərbaycan iqtisadiyyatı əvvəlki illərdəki kimi inkişaf yolunda olub. 2008-ci ilə nisbətən ümumi daxili məhsul istehsalı 9,3 faiz, sənaye istehsalı 8,6 faiz, qeyri-neft sektoru 3,2 faiz artıb, inflyasiya minimum həddə — 1,5 faizə enib. Əsas kapitala 7,4 milyard manat, o cümlədən regionlar üzrə 2,9 milyard manat investisiya yönəldilib. Regionların inkişafı Dövlət Proqramı çərçivəsində təkcə həmin ildə 5300-dən çox ən müasir texnologiyalar tətbiq olunmaqla yeni müəssisə açılıb. 200-ə qədər müxtəlif təyinatlı istehsal və xidmət müəssisələrinin inşası davam edib. Bu faktın özü dinamik inkişafın göstəricisi və düşünülmş siyasətin bəhrəsidir. Azərbaycanda intensiv tərəqqi bu gün də davam edir və yeni mərhələyə qədəm qoyub. 2004-cü ildən başlayan güclü sosial-iqtisadi inkişaf 11 ildə ölkəni dünyanın ən yüksək templə irəli gedən dövlətinə çevirib. Bu müddətdə ÜDM 3,4 dəfə, sənaye istehsalı isə 2,7 dəfə artıb. Strateji valyuta ehtiyatlarında isə artım 28 dəfədir. Orta əmək haqqında bu göstərici 5,7 dəfədir. Orta aylıq pensiya isə 9,2 dəfədən çox yüksəlib. Qeyd olunan dövrdə 2 min 900 məktəb binası, 560 tibb ocağı tikilib və əsaslı təmir edilib, 41 Olimpiya İdman Mərkəzi, 30 gənclər mərkəzi istifadəyə verilib, yüzlərlə istehsal və emal müəssisələri fəaliyyətə başlayıb. Son 12 ildə 1 milyon 400 min iş yeri açılmışdır. Onun 1 milyonu daimi iş yeridir. Azərbaycan Prezidenti ölkəmizin uğurlu inkişafı barədə deyib: "Azərbaycan uğurla inkişaf edir. İnkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır... bu, bir daha onu göstərir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilər. Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlar reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var - regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatının inkişafı".

Bu gün Azərbaycan xarici investisiyadan asılı olmayan, əksinə özü sərmayə yönəldən donor ölkəyə çevrilib. Dövlət başçısının rəhbərliyi ilə vaxtında, operativ infrastruktur layihələrinin icra edilməsinin təmin edilməsi bölgələrin inkişafı üçün lazımi şəraiti yaratdı. Regionların sosial-iqtisadi inkişafının iki Dövlət Proqramı uğurla icra olundu. Bu, bir daha ölkədə hərtərəfli tərəqqiyə güclü təməl yaratdı. Yolların, su, qaz və elektrik xətlərinin, stansiyaların, su anbarlarının inşasına qoyulan investisiyalar Azərbaycan iqtisadiyyatının inkişafının ilbəil yeni mərhələyə qalxmasına xidmət edir. Azərbaycan öz daxili imkanlarından istifadə edərək dinamik inkişafını təmin edən ölkələrdəndir.

Həyata keçirilən böyük infrastruktur layihələri, abadlıq-quruculuq işləri ölkəmizi müasirləşdirir, insanların rahatlığına, sosial problemlərin həllinə güclü zəmin yaradır. Dövlət rəhbərliyi çalışır ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki mövcud kriteriyalar Azərbaycanda da tətbiq edilsin. Buna nail olmaq üçün dövlətin güclü siyasi iradəsi, proqramları, maliyyə resursları, həm də xalqın böyük dəstəyi vardır. Bugünkü yüksək templi sürətli dinamik inkişafın səbəbi düşünülmüş siyasət, praqmatizm və reallıqdır.

Bu gün Azərbaycan qeyri-neft sektorunu sürətlə inkişaf etdirir. Təsadüfü deyil ki, 2015-ci ilin 6 ayında qeyri-neft sektorunda keçən ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artım baş verib. Qeyri-neft sektorunun sənayesində isə bu göstərici 14 faizdir. Kənd təsərrüfatında da irəliləyiş davam edir - artım 7,3 faiz olub. Beləliklə, regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramının ilk 2014-cü ilində qeyri-neft sektorundan ixracın həcmi təqribən 1,8 milyard ABŞ dolları civarında olub. Bu göstərici ümumi ixrac əməliyyatlarının 8 faizinə bərabərdir. Lakin biz son 5 ildə ÜDM-də real iqtisadiyyatın payının 20 faizədək artdığını, 70 faizə yaxın olduğunu və ixracının 65 faizədək yüksəldiyini, illik artımın isə 13 faiz olduğunu nəzərə alsaq, çox böyük bir iqtisadi sıçrayışın və yüksək tempin, güclü ixrac potensialının yarandığının şahidi olarıq. Dünyada neftin qiyməti bu günədək demək olar ki, 2 dəfə düşüb. Bu prosesin dayanması ehtimalı da yoxdur. Çünki artıq beynəlxalq mediada da yer alan informasiyalardan belə məlum olur ki, bu prosesi idarə edən nəhəng güclər qiymətləri daha da aşağı sala bilərlər. Belə bir vəziyyətdə o dövlət az itki verə bilər ki, onun şaxələndirilmiş müasir, qüdrətli iqtisadiyyatı olsun. Dünyada gedən iqtisadi və siyasi proseslərin çağırışlarına hazır olmaq üçün ölkəmizin rəhbərliyi bütün lazımi tədbirləri vaxtında və operativ görür. Nəticə də, göründüyü kimi, ürəkaçandır. Təbii ki, neftin qiymətinin aşağı düşməsi dövlətin gəlirlərinə təsir edə bilər, lakin nə iqtisadi, nə də maliyyə böhranına və fəlakətə yol aça bilməz. Bu gün Azərbaycan iqtisadiyyatı çoxşaxəlidir. Bu proses daim dərinləşir, sahələrin innovativ dominant inkişafı ölkəmizin hər hansısa zəruri məhsulun ixracından asılılığını aradan qaldırır, əksinə çoxçeşidli məhsullarımız yeni-yeni bazarlara çıxır.

Dövlət başçısı düşünülmüş, müstəqil siyasətin inkişafı təmin etdiyi və ölkəmizi daim irəli apardığı barədə deyib: "Azərbaycan dövləti öz yolu ilə gedir. Bu yol müstəqillik və inkişaf yoludur. Azərbaycan xalqı öz taleyinin sahibidir. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz, bizi inkişaf yolundan döndərə bilməz. Ona görə ki, iqtisadi inkişaf bizim uğurlu inkişafımızın, müstəqilliyimizin əsas təminatçısıdır".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**